UOT 373.3/.5

***Nigar Yusif qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TƏLİM PROSESİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ TƏBLİĞİ ÜZRƏ APARILAN İŞLƏR

***Нигяр Юсиф гызы Мамедова***
*Азербайджанский Государственный Педагогический Университет*

# РАБОТЫ, ПРОВОДИМЫЕ ПО ПРОПАГАНДЕ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСТВА В УЧЕБНОМ ПРОЦЕССЕ

***Nigar Yusif Mammadova,***
*Azerbaijan State Pedagogical University*

# WORKS CONDUCTED TO PROMOTE THE IDEOLOGY OF AZERBAIJANIS IN THE EDUCATIONAL PROCESS

**Xülasə.** Məqalədə tədris prosesində şagirdlərdə azərbaycançılıq ideologiyasının formalaşdırılmasının əhəmiyyəti vurğulanır. Problemlə bağlı müxtəlif fikirlər təhlil edilir və ümumiləşdirilir. Şagirdlərin vətəndaş kimi yetişməsində və vətənpərvərlik hissinin yüksəldilməsində azərbaycançılıq ideologiyasının mahiyyəti açılır.
***Açar sözlər:*** *vətənpərvərlik, tarixi məkan, zaman, din, dil, adət-ənənə, ideologiya*

**Резюме.** В статье подчеркивается важность формирования идеологии азербайджанства в учебном процессе. Анализируются и обобщаются различные взгляды на данную проблему. Суть идеологии азербайджанства раскрывается в формировании учащихся как граждан и повышении чувства патриотизма.
***Ключевые слова:*** *патриотизм, историческое пространство, время, религия, язык, традиции и обычаи, идеология*

**Summary.** The article emphasizes the importance of forming the ideology of azerbaijanism in the teaching process. Different views on the problem are analyzed and summarized. The essence of the ideology of azerbaijanism is revealed in the development of students as citizens and patriotism.
***Key words:*** *patriotism, historical space, time, religion, language, traditions, ideology*

Milli ideologiya cəmiyyətin təhsillə, təhsilin cəmiyyətlə bir-birini tamamlamasının əsasını təşkil edir.

Azərbaycançılıq müstəqil, hüquqi, suveren Azərbaycanın istiqlalını, demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik və dini hüquqlarının bərabərliyi onun əsasında dayanan ideyadır. Bu ideologiya XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmışdır (2, s. 3-4)

Azərbaycançılıq ideologiyası geniş əhatə dairəsi ilə yanaşı, konkret məqsədlər də güdür. Belə ki, bu ideologiya ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında və dövlət quruculuğunda mühüm rol oynayır. Milli ideologiyamızın əsas elementlərindən biri də vətəndaşlıqdır. Vətəndaşlıq özündə vətəndaşın siyasi, mənəvi, hüquqi və sosial keyfiyyətlərini cəmləşdirir. Vətəndaşlıq azərbaycançılığın əsasını təşkil edir. Azərbaycançılıq ideologiyasının yaşaması vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətindən asılıdır. Dövlət quruculuğunda və vətəndaş cəmiyyətinin qurulmağının təməli məhz təhsil müəssisələrindən; ümumtəhsil məktəblərindən, orta ixtisas və peşə ixtisas məktəblərindən, təhsilli gənclərdən başlayır. Tədris müəssisələrində

milli ideologiyanın, milli dəyərlərin, vətənpərvərlik ruhunun formalaşdırılması təhsilin əsas məqsədlərindən biri olmalıdır. Şagirdlərdə azərbaycançılıq ideologiyasının formalaşdırılması onlarda vətənə, millətə məhəbbət hissini yüksəldir.

Azərbaycançılıq ideologiyasının inkişafında Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri danılmaz faktdır. O, 2001-ci il noyabrın 9 da Dünya azərbaycanlılarının birinci qurultayında dövlət siyasətinin ən üstün hissəsini; "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" sözlərini vurğulamışdır. Heydər Əliyevin bu fikri milli ideologiyamıza verdiyi dəyəri təcəssüm etdirmişdir. Azərbaycançılıq ideologiyasının məzmununu ölkəmizdə ilk dəfə açmış Ulu öndər Heydər Əliyev bu məfkurəni bütün dünya azərbaycanlılarına ərmağan etmişdir (1, s. 12).

Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır" (4, s. 2).

Yuxarıda qeyd etdiyim kimi, keçən əsrin əvvəllərində təşəkkül tapan azərbaycançılıq ideologiyası ötən əsrin görkəmli mütəfəkkiri Əli bəy Hüseynzadənin irəli sürdüyü "türkçülük, islamçılıq və müasirlik" şüarındakı hər üç istiqaməti əhatə edən və bu baxımdan nə türkçülüyə, nə də islamçılığa daxil olmayaraq, daha geniş və daha konkret məzmun daşıyan bir məfkurədir.

Milli ideologiyanı tədrisdə şagirdlərə mənimsətməklə xalqın ideya-mənəvi baxışlarını, psixoloji xüsusiyyətlərini, mübarizə və yaşamaq qayəsini, can atdığı idealı mənimsətmiş oluruq. Əbəs yerə deyildir ki, hər bir dövlətin cəmiyyətində təhsilin uğurlu inkişafı onun düzgün və mütərəqqi ideologiyasının mövcudluğu ilə şərtlənir. Azərbaycançılıq ideologiyası İslam dini dəyərlərinə yiyələnmək, vətənin inkişafı və müstəqilliyin qorunub saxlanılması, hər daim torpaqların bütövlüyü naminə fədakarlığa hazır olmaqdır. Milli ideologiyada xüsusi yer tutan bu məzmun bir sıra şərtlərlə səciyyələnir: Bunlar, təhsil kamilliyi, məktəbdə təlim-tərbiyə işinin milli məzmunda qurulması, təhsilin peşəkarlıqla həyata keçirilməsi ilə bağlıdır. Təhsil elə qurulmalıdır ki, milli ideologiyaya tam xidmət etsin, təlim-tərbiyə işinin məzmunu, metodları sırf milli vətəndaşlar yetişdirilməsinə şərait yaratsın. Buna görə də, tədris proqramları və dərsliklər milli məzmunda qurulmalı, təlim dilindən asılı olmayaraq, bütün tip məktəblərdə tətbiq edilməlidir. Məktəblər savadlı müəllim kollektivindən təşkil olunmalı, ixtisasını bilməyən, əqidəliliyi, obyektivliyi qorumayan kadrlar təhsil müəssisələrindən təmizlənməlidir.

Təhsil müəssisələrində müəllim-tərbiyəçi kadrların hazırlığının tam keyfiyyətli olmasına qəti şəkildə əməl edilməlidir. Nəzərə almaq lazımdır ki, təhsil sadəcə pedaqoji proses deyil, eyni zamanda ictimai-siyasi və sosial prosesdir. Öz mükəmməlliyi, aydınlığı ilə cəmiyyətin inkişaf strategiyasını istiqamətləndirən milli ideologiyada təhsil çox önəmli və əvəzedilməz rola malikdir. Bu səbəbdəndir ki, təhsil ictimaiyyəti Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyasının məzmun və mahiyyətini dərindən bilməli və bu ideologiyanı böyüməkdə olan nəslə aşılanmasında əlindən gələni əsirgəməməlidir.

Azərbaycan xalqının tarixin sınaqlarından keçmiş "tərcümeyi-hal"ına baxdıqda biz görürük ki, bu xalq dünyanın zəngin həyat yolu keçmiş xalqlarından biridir. Azərbaycan Respublikasının gücləndiyi, dünya azərbaycanlılarının müstəqil dövlət ətrafında mənən, ruhən sıx birləşdiyi bir dövrdə ortaya belə bir sual çıxır: Azərbaycanlı kimdir, yaxud azərbaycanlı kimə deyilir? Və bu suala yaşamış tarix, dövr, zaman belə cavab verir:

1. Türk mənşəli azərbaycanlılar;
2. Azərbaycan xalqının tərkibinə daxil olmuş müxtəlif mənşəli etnoslar;
3. Və özünü azərbaycanlı sayan hər kəs.

Azərbaycan xalqı yalnız milli idealları ilə fəxr edən bir xalq deyil, həm də kifayət qədər böyük beynəlmiləl hisslərə malik bir xalqdır. Bu gün hər hansı millətə, yaxud dini dünyagörüşə mənsub bir insan Azərbaycan Respublikasında

tamamilə rahat yaşaya bilər. Bu səbəbdəndir ki, azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Bu istiqamətdə də Heydər Əliyev Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Onun 2001-ci il iyun ayının 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmçinin 2001-ci il avqust ayının 9-da imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili Gününün təsis edilməsi haqqında" Fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malikdir(2, s. 89, 91)

Azərbaycan ideologiyasını diktaturadan və avtoritarizmdən demokratiyaya keçid dövrünün nəzəriyyəsi, milli müstəqillik haqqında təlim, imperiyaçılığa qarşı müqavimətdə formalaşan istiqlal ideologiyası adlandıran Nizaməddin Şəmsizadə onun bu şərtlərinin olduğunu göstərir: maarifçilik yolu ilə inandırma, tarixi əsaslandırma, təşkilatlandırma, istiqamətləndirmə və yeni yaratma.

Azərbaycan ideologiyasının aşağıdakı mürəkkəb hissələri göstərilir: 1. Məfkurəçilik; 2. İstiqlalçılıq; 3. İttihadçılıq; 4. Türkçülük; 5. İslamçılıq; 6. Xalqçılıq; 7. Ünsiyyətçilik, vahid dillə və mədəniyyətlə vəhdət (3, s. 3)

Bütün bunlar ideologiyada boşluğu, onunla birlikdə cəmiyyətdəki şəxsiyyətsizləşməni aradan qaldırar, Ümummilli ifadəni möhkəmləndirir. Bu isə dövlətçiliyin əsasıdır.

Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq ideologiyasının çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Bəli bu gün milli ideologiyanın inkişafında təhsilli gənclərin, savadlı müəllim kadrlarının olmağı vacib şərtlərdən biridir. Təhsilimizin ana dilində olmağı, hər kəsin doğma dilini mükəmməl bilməsi milli ideologiyanı qavramağa və onu özündə hökmran etməyə güclü təsir göstərir. Demokratik Azərbaycanın daha da güclənib möhkəmlənməsi üçün milli ideologiyamızı şagirdlərə dərindən mənimsətmək və ona sahib çıxmağı öyrətmək günümüzün vacib tələblərindəndir.

**Problemin aktuallığı.** Aparılan məqsədyönlü və mütəşəkkil tədbirlər nəticəsində təhsil alanlar azərbaycançılıq ideologiyasının başlıca komponentləri üzrə bilik, bacarıq və qabiliyyətlər qazanır, öz fəaliyyətlərində bunu bilavasitə büruzə verirlər.

**Problemin elmi yeniliyi.** Peşə məktəblərində Azərbaycan tarixi fənnin tədrisi prosesində "azərbaycançılıq" ideologiyasının formalaşdırılması yollarını magistr dissertasiyası çərçivəsində araşdırmışdır.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatda irəli sürülən fikirlər, çıxarılan nəticələr bu səpkidə tədqiqat aparan araşdırmaçılar, həmçinin diplom, kurs işləri və referatların yazılmasında istifadə üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, 2002.
2. Cəfərov N. Azəbaycançılıq ideologiaysının etnoqrafik əsasları. Bakı, 2016.
3. Ömərov V. Azərbaycançılıq ideologiyasının əsasları. Bakı, 2012
4. Cəfərov İ. Azərbaycan multikulturalizminin banisi. Bakı, 2019.

**E-mail:** mmmdovanigar8@gmail.com

**Rəyçilər** *ped.ü.fəls.dok., dos.* **M.S. Kazımov,** *:*
*dos.* **A.Y. Piriyeva**

**Redaksiyaya daxil olub:**11.03.2021